# POEZİYA - DÜNYAMIZIN SÖZ ÜZÜ

## 1. Sözün gəraylı çağında şairin titrəyən duyğuları

*Sözü çəmən bildim, şeiri gül-çiçək*
*Ruhumun dilində açdı hər ləçək.*
*Çırpdım qanadını ilham pərimin*
*Töküldü kağıza söz ləçək-ləçək.*

**Müəllifdən.**

Balayar Sadiqin poeziyası obrazlar üzərində qurulduğundan xüsusi cazibə gücünü artıq qeyd etdiyim kimi bütün şeirlərində qoruyub saxlayır. Elə bil ki, şairin poetik aləmi dolmuş göy üzü kimi ürək titrədən duyğuları kağız üstünə beş əllə yağıb. Sözün topa-topa (oxu: şeir-şeir, bənd-bənd, misra-misra) çiçəkləri dərilib dəstə bağlanmış çimləri ilə gözlərimizin önündə xüsusi mənzərə yaradır; göz gördüyündən doymaq istəmir.

"Ömrün gəraylı çağları" kitabına (2014) toplanmış poetik örnəkləri şair bir neçə bölməyə ayırıb: "Ürəyim yaşıl səməni" bölümünə toplanmış şeirlər həyat, təbiət və cəmiyyət hadisələrindən duyğulanaraq yazılan poetik örnəklərdir. Balayarın təkcə bir şeirini də götürüb təhlilə çəksən özü demiş ömrün gəraylı çağlarına kifayət qədər ayna tutmuş olarsan: "Ömür-ömür yollar keçir, bəyaz, ağappaq qapıdan. Hər çiyində dayanan baş, keçəmmir papaq qapıdan". İlk baxışdan adama elə gəlir ki, şair fikrini sözün alt qatındakı mənanı o qədər dərinə çəkib ki, onu üzə çıxarıb həqiqi tərəfini tapmaq çox çətin olar. Ancaq belə deyil, bir qədər düşüncəni səfərbər edib misralara yığılmış mənanın dumanlıqlar arxasında qalan tərəfini bütün çılpaqlığı ilə görmək mümkün olur. Bütün ömürlərin keçdiyi bircə ağ qapı var; bu da insanın haqqı olan sonuncu geyəcəyi paltarla keçdiyi qapıdır. Və elə buradaca qapıdan, yəni o qapıdan ki, bütün insanların ömür-ömür keçə bildiyi qapıdan fərqli bir qapını da diqqətə çəkir. Bu da böyük insanlıq, ləyaqət qapısıdır. Qorxmazlıq, həqiqəti qoruya bilmək qapısıdır, haqqın tərəfində durmaq qapısıdır. Ancaq təəssüf ki, hər kəs taledən ömür payı almış bütün insanlıq ümumi ağ qapıdan keçə bildiyi halda, bu dünyadakı özünün ixtiyarında olan qapıdan keçə bilmir. Amma şair bunu bir başa demir. Hər çiyin üstündə dayanan başdan söz açır. Başı şəxsiyyət adlanan məhək daşına çəkir. Və bu zaman məlum olur ki, hər baş papaq qapıdan keçə bilmir. Xalq arasında söz var deyərlər papaq təkcə baş üçün isti-soyuqdan ötrü deyil, papaq şəxsiyyətin təyinedicisi olaraq mənəviyyat ölçüsüdür.

Şair bənddən bəndə (daha doğrusu qapıdan-qapıya) keçdikcə fikrin daha dərin qatlarından yeni mənalar çəkib gətirir. Sanki qapıdan keçməyin çətinliyini asanlığını təzədən çözür. Bununla da həqiqi meyar olan qapıdan keçməyin haqqını insanlığın kələf-kələf yaşadığı ömürdə qazandığını göstərir: "Kələf-kələf aç bu ömrü, Əriş ömrü, arğac ömrü.-Fəsil-fəsil ağac ömrü, boylanır yarpaq qapıdan". Bir ağac quruyursa, əvvəlcə onun qurumağını göstərən əlamət yaşıllığının, yaşının itməyidir, yarpağının saralmağı, büruşməyi, qurumağıdır. Demək bir ağac da əslində sonuncu dəfə nəfəs alaraq bir yarpaq qapıdan keçib gedir. Sonuncu yarpaq düşməklə ağacın da ömrünə əlvida deyilir. Beləliklə, bütov həyatın, bütün insanlığın timsalı olacaq o sonuncu yarpaqdan sonra son nəfəs də axırıncı işığını dünyaya bəxş edir: "Son nəfəs canda qıvrıldı,Ömrün kirpiyi qırpıldı.Başdaşılar daş qıfıldı,Asılıb torpaq qapıdan". Beləcə bir şeirin sonunda bütün insanlıq üçün bir ömürün bitməyi, bir kipriyin qırpılmağı qədərindədir. Bundan sonra şair baş daşını yada salır və baş daşını daş qıfıl adlandırır. Və bu daş qıfılın torpaq qapıdan asıldığını qeyd edir. Teymurləngin məzarının açılması - daş qıfılın torpaq qapıdan götürülməsi türk mifaloji düşüncəsində böyük bədbəxtliyə səbəb ola bilər fikiri hələ qabaqcadan vardı. Çingiz Xanın məzarını axtarırlar. İndi də uzaq türküstan, monqol çöllərində belə bir fikir dolaşır ki, Çingiz xanın məzarını tapıb açmaq dünyanı fəlakətlə üzüzə qoyar. Bu əslində insanlıq üçün xəbərdarlıqır. Çox təəssüf ki, erməni vandanları işğal etdikləri ərazilərdə qəbirləri vandanllığa məruz qoyublar. Qəbirlərin ətrafına səpələnmiş kəllələrin ağaran dişləri düşmənə öz istehzasını göstərir. Yəni tez-gec cəzanı alarsan. Azərbaycan ordusu torpaq altına köçmüş olanların vandallara istehzasını həqiqətə çevirdi. Zənnimcə Balayar Sadiq dünyaya, insanlığa elə bu həqiqəti xatırladır. Ümumi bəşəri qanunlar var onu pozmaq olmaz; bəlkə də şair missiyasının təkcə vətəndaşlıq yox, həm də insandaşlıq mövqeyi elə budur.

Hər fəsildən bir şeirə yön tutaq. "Anama məktublar" bölümündən də istənilən şeiri seçə bilərdik. Çünki Balayarın istedadı o qədər cilalıdır ki, seçimə də ehtiyyac yoxdur. Hansı örnəyin üstündə dayansan ümidini göyərdər, duyğuların bitirər, sözünü yağışa çevirib üstünə ələyər. Bircə sənə o qalır, yağışa çevrilib üstünə ələnən sözü kağıza yönəlt; qismətə "Dincəldim" adlı gəraylı gəldi: "Gözlərimdən bulud keçdi,Sözlərimdən bir od keçdi.Ürəyimdən o yurd keçdi, Ana, kövrəldim, kövrəldim". Gözlərdən bulud, sözlərdən od keçməyi aydındır, ancaq şair növbəti sözünün düzümünə uyğun "O yurd" adı ilə məkan anlamı daşıyan ifadə işlədir. Bütün mənalarda insanın doğulub böyüdüyü yurd, məkan yaddaş qaynağıdır. Şair yaddaş qaynağına istinadən oxucunun düşüncəsi ilə səfər edə biləcəyi məkanların hamısını nəzərdə tutur. Yəni hər bir oxucu öz məkanını ilkin ayaq tutub yeridiyi, könlünə doğma olan, gözünə yazılmış olan yerləri gəzə bilər. və qətiyyən şair düşüncəsinə də zidd deyil bu xəyali hərəkət... əslində, məntiqi cəhətdən bütün istiqamətlərdə etiraz doğurmayan bu məkan anlamı tamam başqa bir mənanı yaddaşın alt qatından çəkib oxucusuna təqdim edir. Bəs bu hansı mənadır? Sual nə qədər ritorik olsa da, cavab istəyir və cavabı bir qədər ləngidək. Atam Zal Əziz oğlu deyərdi ki, necə ola bilər ki, uşaq anasını tanıya bilməsin. Axı ana öz övladına süd verəndə gözünü uşağının gözünə zilləyir. Uşaq da bütün diqqəti ilə ananın canından südlə bir yerdə ruh çəkdikcə onun gözlərinə baxır. Demək, ana və bala birinci növbədə gözləri ilə bir-birinə doğmadır. Məhz doğmalığı ilə həmin məkandır Balayar Sadiqin tərənnüm etdiyi "o yurd". Yəni şairin indiki yaşından, indiki narahat dünyasından qayıdıb xəyalı ilə səfər elədiyi, iztirabları ilə yaşadığı, həsrəti ilə dərdini çəkdiyi "o yurd" ananın qucağıdır. Füzuli şeirinin dərinliyini nədə görürük; bir-birini təkzib etməyən və bir-birinin davamı olan mənaların ifadə ardıcıllığında. Elə ona görə də şair əlli yaşından altmış yaşına doğru ömür səfərinin kövrək çağını "həmin yurd"a qayıtmaq istəyində görür. Və əgər qayıda bilsəydi, anasına mən gəldim deyə bilsəydi, təkcə özünü xoşbəxt bilməzdi. Həm də anasını xoşbəxt bilərdi: "Öz ömrümü gəzə-gəzə,Söykəndim bir qərib səsə.İçimdə bir yol qəribsər, Ana, mən gəldim, mən gəldim". Və demək sevinməyin məqamı gəlir. Yolları yora-yora keçib gəlib, bu yollarda çoxlu sevinc də görüb, kədər də görüb. Səmimi olan sevgilər də görüb, qeyri-səmimi olan sevgi donuna bürünmüş istəklər də görüb. Ancaq bütün bunların heç birisi onun narahat ruhunu sakitləşdirə, uyuda bir rahat məkanla xoşbəxt edə bilməyib. Yəqin ki, elə bu səbəbdən keçib gəldiyi dünyanın özünü qədim bir qəm kitabı adlandırır: "Dünya qədim qəm kitabı, Eynək bil dözümü, tabı.-Dərdi açdım qapı-qapı,Ana, dincəldim, dincəldim". Bu yerdə deyirlər bu da sənin axır məkanın. Get indi həsrətini çəkdiyin o yurda ruhunla qovuş. Çoxlarına elə gələ bilər ki, burada bədbin bir ruh hakimdir. Əslində şair ilk baxışdan bədbin görünə biləcək hisslərin arxasınca sağlam bir həyatın, sağlam bir düşüncənin ömür adlanan yolunu tərənnüm edir. Əgər bu yolda azmaq varsa, şair də o yurda gedib çıxa bilməzdi. Və nəticədə şübhəsiz dincələ də bilməzdi.

Kitabda 3-cü bölüm "Oğlunu ağlayan qadın" silsiləsi adlanır. Yəqin ki, Balayarın mənəvi mühitində şeirin məna silsiləsi ilə dağların zirvə ardıcıllığı silsiləsi hardasa bir-birinə bənzəyiş tapır. Amma burada oğlunu ağlayan qadından söhbət gedirsə, demək dərd dağlarının silsiləsi yada düşür. Təkcə elə şeirlərin adına diqqət edək: "Baş daşı", "Qadın", "Şəhidlik", "Bacım", "O yerlərə dönəsiyəm"... bu adların hər birində ürək dağlarının bir zirvəsindən söhbət açılır. Və bu zirvələr bir-birinin davamı ilə sıralandıqca, silsilə yaranır. Və Qarabağ silsiləsi gözlərimizin önündə həm əzəməti, həm də sonsuz kədəri ilə canlanır. Bu silsiləni Balayar Sadiq 7 il bundan əvvəl yaradıb. Az qala ümidlərin qırıldığı zamanda, onda hələ aprel döyüşləri olmamışdı. Onda hələ biz Tovuz və nəhayət, bütöv Qarabağ uğrunda savaşa başlamamışdıq. Və demək olar ki, buna hələ az qala ümid də etmirdik. Şair hər dövrün, hər zamanın rəngini, çalarını özü tutur. Zamanın qara rəngini görə bildiyi, yaza bildiyi kimi vaxtı çatanda onun qırmızı rəngini də sözə gətirə bilir. Amma hər halda Balayar Sadiq sözünü zamanında deyən və oğlunu ağlayan qadından danışır. Bu qadın isə ona yad deyil. Özünün bacısıdır, digərinin anasıdır, başqa birinin nənəsidir... yəni Azərbaycan qadınıdır. Silsilədə olan şeirlərin hər hansı birinə güvənə bilərdik. "Bacım" rədifli şeir zənnimizcə daha artıq haqq üstədir: "Bu kilidin qəmdi pası, Açarı qəbrin qapısı. Bu dünya səbrin qapısı, Qəmin mübarəkdi, bacım". Kilidin qəm olan pası, qəbrin açar olan qapısı kimi obrazlar məhz Balayar Sadiqə məxsusdur. O bu obrazları bəlgə tutaraq həyat, tale, dünya haqqında, sevinc və kədərin ayrılmazlığı haqqında düşüncələrini bir araya gətirə bilir. Onun ağ və qara, xeyir və şər, yalan və doğru arasındakı savaşı, özü də qanlı savaşı görərək yazıya gətirməsi oxucusu üçün cazibə müstəvisi yaradır. Sanki oxucu ondan qopub getmək istəmir və ondan bu savaşın ucunu görmək istəyir. Əlbəttə, savaşda qanına bələnmək var. Bir tərəfin ölümü var, digər tərəfin bu ölüm önündə qürrəsi var. Ancaq burada cismən qalib gələn yox, cismən ölən yox, hansı tərəf haqlıdırsa, odur qalib gələn. ona görə də o "Bacım" adı ilə müraciət etdiyi qadına qəmin mübarəkdir deyir. Çünki həlak olanın, ölənin cismi yalnız fiziki olaraq yoxluğa çevrilib. O ruhən diridir və qalibdir. Və elə buna görə də Balayar Sadiq qəmin mübarəkdir deyir.

Bu dünyanın çox üzü var. Canı yanan, ürəyi göynəyən, gözləri ağlayan üzü var. Və həm də daşürək üzü var. Və Balayar Sadiq də həmin o gördüyü üzü dünyanın daşürək üzünü də ytaddan çıxarmır. Ona da özünə yaraşan bir tilov atır. Və üz tutub xitab etdiyi doğmasına xatırladır ki, üzündə qəm cizgilənsə də bunu özünün bəxt aynası kimi qarşıla. Çünki daşürək bir dünya ilə üzüzəsən: "Ağrın yağar dənər-dənər, Baxıb sənə daş da dinər. Üzündə qəm güzgülənər, Dünya daşürəkdi, bacım". Yaxşıdır, ən azı ona görə yaxşıdır ki, ağrının dənə-dənə yağdığı bir zamanda dünyanın gəldi-gedərini lal bir sükutla dinləyən daş da dinir. Əlbəttə, bu daş adi daş deyil. Qadının kədərinin, dərdinin abidəsi olan daşdır. Bəlkə, o daşın üzündən bir şəkil də baxır. O daşın üzündən baxan şəkil hansısa xatirələrlə dilsiz-dilsiz, sakit-sakit onu ağlayan qadınla danışa bilir.

Balayar Sadiq həmişə şeirlərinin axırında bir duruluğa tərəf gəlir, bir aydınlığa tərəf yön tutur. Sözünün gücü ilə, enerjisi ilə insanları mələklər aləminə çəkir. O istəyir ki, insan öz içindəki şeytanilikdən xilas olsun. Və Şeytaniliklə bir yerdə dünyamızda olan mələkliyə tərəf yönünü qiblə bilsin: "Taleyimdən bir söz axdı, Mələklər kövrəlib baxdı.Kimin haqqı, kimin baxtı,Zaman bir məhəkdi, bacım".

Balayarın poetik silsilələri uca dağların zirvə ardıcıllığını yada salır. İstəyirsən ki, bu zirvələrin hər birinə çatasan, bu zirvələrin hamısından keçəsən və şübhəsiz bu zirvələrin hamısından keçmək Allaha yetmək, Tanrıya qovuşmaqdır.

Görünür, Balayar özü də oxucu düşüncəsindən keçə biləcək bu istəkləri qabaqcadan duyur. Fəqət zirvədən-zirvəyə keçmək asan deyil. Nitsşenin dediyi burada lap yerinə düşür. Dağlarda kəsə yol zirvədən zirvəyədir, fəqət bunun üçün uzun ayaqların olmalıdır.

Mətni şərh etməli olsaq, təfərrüata vararıq. Amma nəticəni qeyd etmək olar. Balayarın poeziyasını zaman-zaman araşdırmaq, onun poetik imkanlarının zirvəsinə yetmək qısa müddət üçün çox müşkül olardı.

Tanrı dualarını, xüsusilə B.Sadiqin poetik incilər kimi oxuna biləcək sonetlərini təhlilə çəkmək, ən azı oxucu anlamı səviyyəsinə gətirmək özü elə sözün xidmətində durmaq demək olardı.

"Ömrün gəraylı çağları" kitabında Balayarın çox dəyərli, lirik poemaları da verilib. Xüsusilə, "Qan" poemasının orjinal forması çox ilhamlı düşüncələrə meydan aça bilmək gücündədir. "Yol", "Baş daşı", "Edam günü", "Bir ovuc yaddaş torpağı", "Zindan görüşləri"... əsərləri ədəbi tənqidi düşüncə üçün əsil savaş meydanıdır. Mənəvi, psixoloji problemlərimizin çözülməsi üçün məna meydanı açan əsərlərdir.

Şairin gərək sözündən qabaq qanı danışsın. Bir az da dəqiq ifadə etsək belə də deyə bilərik qan sözün içində danışa-danışa müsahibə çevrilməlidir.

Balayar Sadiqin poeziyası dilbilməzləri də dilə gətirmək gücündədir.

***Ə.R.XƏLƏFLİ***
***12.03.2021***